XX əsrin faciəsi - Xocalı soyqırımı

Hər insanın həyatı, əslində, bir roman mövzusudur, - deyiblər. Həm də yaşadığı dövrün aynasıdır. Və əgər eyni qisməti bölüşən çoxsaylı insanların bənzər taleləri, oxşar sevinc və xatirələri, yaxud kədərləri, faciələri qələmə alınarsa, bu, nəticə etibarilə mənsub olduqları xalqın da həyatının müəyyən dövrünü əks etdirər...

26 il öncə baş verən Xocalı soyqırımından salamat çıxmış insanların taleyi də faciəli romandır desək, heç də yanılmarıq. Onların yaşadıqları itkiləri, məşəqqətləri, hələ də davam edən iztirabları bir yerə toplayanda isə bu, artıq bütöv bir xalqın məruz qaldığı soyqırımının təsdiqinə çevrilir...

İllər keçəcək və erməni işğalçılarının Xocalıda törətdikləri vəhşiliklər haqqında yazılanlar tarixin ən dəqiq, ən səhih səhifələri kimi öyrəniləcək, tədqiq ediləcəkdir. Demək, bu qanlı soyqırımını öz yaddaşında yaşadanları danışdırmalıyıq, dedikləri əsasında bu tarixi yazmalıyıq...

Elə bir Xocalı sakini yoxdur ki, o müdhiş gecədə doğmasını, əzizini itirməsin. Özü də birini yox, beşini, onunu, allisini... Əsirliyin fəlakətini yaşamasın... Hələ illər boyu dişlə-dırnaqla qurduqları xanimanlarının əllərindən zorla alınmasını, yandırılan, dağıdılan, xarabalığa çevrilən yurd-yuvalarını demirik. Odur ki, xocalılılar hələ də təsəlli tapa bilmirlər, hər gün, hər an vətən deyib sızlayırlar. Xocalı deyəndə nə düşünürlər, nələri və kimləri xatırlayırlar?

Xocalı acıları unudulan deyil! "Zaman bütün yaraları sağaldır", "Torpağın üzü soyuq olur" deyilsə belə...

Xocalının həmsöhbət olduğumuz sakinlərinin hərəsinin öz həyat hekayəti, ürək dağlayan naləsi var...

Söz onlarındır, Xocalı soyqırımının şahidlərinin...

XOCALI ŞAHİDLƏRİ DANIŞIR

12 yaşlı uşağın başını erməni qəbrinin üstündə kəsdilər

Dürdanə Ağayeva:

- Xocalı rabitə qovşağında telefonçu kimi 1989-cu ildən işləməyə başlamışam. O zaman hələ 17 yaşım vardı. Fevralın 25-də topun, tankın səsindən qulaq tutulurdu. Vəziyyət ağırlaşanda camaat bir müddət evlərin zirzəmilərində gizləndi. Az keçməmiş xəbər gətirdilər ki, artıq düşmən Xocalı aeroportuna girib. Bu səbəbdən şəhərdən uzaqlaşmağa məcbur olduq.

Gəlib çıxdıq Qarqar çayının sahilinə. Hava işıqlaşanda Qaraqaya adlanan yerə çatmışdıq. Ermənilər bizə tərəf atəş açmağa başladılar.

Ayağımda bir istilik hiss etdim, baxanda gördüm ki, məni də vurublar, yaralanmışam. Bir qədər süründükdən sonra huşumu itirdim. Ayılanda camaatdan çox geri qalmışdım. Bir qədər sonra qardaşımı da yaraladılar. Sonra başımızın üstünü kəsdilər. Bizi əsir alıb Əsgəran tərəfinə gətirdilər...

Məni 8 gün Əsgəranın polis bölməsinin zirzəmisində 70-100 kişi əsirin yanında saxladılar. Tək qadın mən idim. Rabitəçi olduğuma görə məni durmadan döyürdülər, əllərimi açə bilmirdim, o qədər vurmuşdular ki əllərimə... Düz iki gün ölü kimi qalmışam. Həmin vaxt saçımdan tutub sürüdükləri yadımdadır, bir də ayıldım ki, dizə qədər palçıq olan tualetdəyəm. Qapıda duran mühafizəçi dedi ki, iki gündür burdasan, elə biliblər ölmüsən, ona görə atıblar bura.

Qardaşımla birgə əsir düşmüşdüm. Ermənilər bizi ayırdılar. Qardaşım böyründən güllə yarası almışdı, mənsə ayağımdan. Tutulduğumuz gecə orada 40-50 qadın vardı. Ermənilər qadınları on-on, beş-beş Azərbaycan tərəfdəki əsirləri ilə dəyişməyə aparırdılar. Amma mən qardaşımın yarasını, ona verilən əzabı görəndən sonra qapının arxasına qısılıb qaldım. Bir də gördüm ki, artıq qadınlardan heç kim yoxdur, tək qalmışam. Deyirdim ki, qalaramsa da, ölərəmsə də, qardaşımla birlikdə olum...

Bir gün dedim ki, qardaşımı görmək istəyirəm, sağdırmı? Dedilər, gözlə qardaşını gətiririk. Nə qədər ki cavan, seçmə əsirlərimiz var, gətirdilər. Hamısının kurtkasını, köynəyini soyundurdular və təsəvvür edə bilməyəcəyiniz tərzdə bunları döyməyə başladılar. Qardaşım da onların arasında idi. Həmin vaxt məni döymədilər. Amma döyülməkdən betər oldum, elə bil onlara dəyən hər "dubinka" mənə dəyirdi. Tapançayla güllə atıb ayaqlarını, qollarını yaraladılar. Elə edirdilər ki, ölməsinlər. Bir saatdan çox onları döydülər. Baxa bilmirdim, qışqırıb gözlərimi tuturdum ki, görməyim. Biri "dubinka"yla boynumdan vururdu ki, ağlama, bax. Döşəmənin üstü qıpqırmızı qan idi, baxılası deyildi... Nəhayət, 8 gündən sonra bizi dəyişdilər.

Əsirlikdən qurtulub Ağdama gələndə bir ana qaçdı üstümə ki, mənim balamı gördünüzmü? Mən onun uşağını görmüşdüm, erməni qəbrinin üstündə başını kəsmişdilər. 12 yaşı vardı. Bunu anasına necə demək olar? İndinin özündə də o ananı görəndə vicdan əzabı çəkirəm. Axı iki oğlun, bir atanın başının kəsilməsini ailəsinə necə demək olar?! Bu, çox ağırdır.

Faiq adında bir oğlan vardı. Onu məcbur etdilər ki, torpağı öp, de ki, bura Ermənistandır. O da diz çöküb torpağı öpdü və ayağa qalxıb "Bura Azərbaycan torpağıdır. Qarabağ Azərbaycanın olub, olacaq da. Xocalını indi alsanız da, biz ora qayıdacağıq!" sözlərini deyib erməninin üzünə tüpürdü. Onun bədənini deşik-deşik etdilər, meyitini də atdılar həyətdəki yeşiyə.

(Əvvəli qəzetin 22 fevral tarixli nömrəsində)

Yeddi ailə üzvümüzdən ikisi sağ qalıb

Elxan Hüseynov:

- Xocalıda rabitə qovşağında işləyirdim. Hadisə baş verən gecə də işdə idik. Axşam saatlarında, hava qaralanda hiss elədik ki, artıq tanklar, BTR-lər meşənin ətəyinə yaxınlaşır. Bir az keçmişdi ki, güclü atışma başladı. Ermənilər gülləni yağış kimi yağdırırdılar. Gördüm ki, başqa çıxış yolu yoxdur, evə tərəf qaçdım, ailə üzvlərimi götürüb çayın kənarındakı körpüyə, Köhnə dəyirman deyilən yerə gəldim. Camaat ora yığışmışdı, gözləyirdilər ki, bombardmanın axırı necə olacaq... Ailə üzvlərimi orda qoyub posta getdim, çünki Xocalı batalyonunun üzvü idim. Qayıdıb gələndə gördüm ki, ailə üzvlərim yoxdur. Dedilər ki, meşəyə tərəf gediblər.

Xocalıdan iki yol ayrılırdı, biri Ağdama, Gülablı tərəfə, o birisi isə Əsgəranın yanı ilə Ağdam şəhəri istiqamətinə. Düşündüm ki, ailəm uşaqlıdır, yəqin ki, Əsgəran tərəfə gedərlər. Həmin istiqamətdə qaçmağa davam etdim. Dayım oğlu Cavid də mənimlə idi. Yol boyu axtara-axtara getdik, ailə üzvlərimdən heç birini tapmadıq. Hava işıqlanırdı. Artıq Əsgəran istiqamətindəki keçidə çatmışdıq, baxdıq ki, mühasirədəyik. Ermənilər dörd bir tərəfimizi tutublar. Hər an gözləyirdik ki, bizi tutacaqlar, yaxud öldürəcəklər. Kolluqda gizlənmişdik. Gözlədik, gecə düşdü, kolluqların arası ilə sürünə-sürünə birtəhər Ağdama gəldik.

Xalamgil Ağdamın Qiyaslı kəndində olurdular. Ona görə əvvəlcə bu kəndə getdim. Hamamda özümə baxanda qorxdum. Üzüm-gözüm qan içində idi. Daş, tikan bədənimi cırıq-cırıq etmişdi. Səhər yenə qərargaha qayıtdım. Ailə üzvlərimdən hələ də bir nişanə yox idi. Üç övladım, yoldaşım, anam, qardaşım və bacım sanki yox olmuşdular. Düz dörd il sərasər bütün sərhəd zonalarını axtarmışam. Amma onları gördüm deyən olmadı.

Atam həmin vaxt Yevlaxda olduğundan ailəmizdən bir mən, bir də atam sağ qalıb. Yeddi nəfərimiz Xocalıdan çıxmayıb. Bugünə qədər onlardan bir xəbər yoxdur. Həmin qanlı gecədə qohumlarımdan da itkilər olub. Dayımı güllələyiblər, bacım oğlundan da heç bir xəbər yoxdur. Bacımın qaynının 3 oğlunu girov götürüblər. Onların da öldükləri, qaldıqları bilinmir. Yalnız girov götürüldükləri məlumdur. Bacımın özünü isə meşədə öldürmüşdülər...

Xocalı faciəsində 20 nəfərdən çox doğmamı itirdim

Zakir Bəndəliyev:

- 1992-ci il fevral ayının 25-də gecə saat 12-ni keçmişdi. Postda idim. Kəndimizin yuxarısında olan və ermənilərin yaşadığı Mehdi kəndi istiqamətinə zirehli texnikanın gəlməsini müşahidə etdik. Sonra ermənilər çayın əks tərəfində olan Noraguh kəndindən bir-biri ilə fişəng vasitəsilə əlaqə saxladılar. Bunun ardınca kənd müxtəlif növ silahlardan atəşə tutuldu. Evə gəlib həyat yoldaşıma və bacıma narahat olmamalarını, bir azdan murdar ermənilərin sakitləşəcəklərini dedim. Kəndin içərisində hündürdən səslər gəlməyə başladı. Çıxıb vəziyyəti öyrənmək istədim. Lakin evdəkilər qoymadılar ki, çıxan kimi güllə dəyə bilər. Evimiz ermənilərin yaşadığı Noraguh kəndi ilə üzbəüz idi. Buna baxmayaraq çıxdım. Məlum oldu ki, artıq ermənilər kəndin baş tərəfindəki evləri yandırmağa başlayıblar. Artıq gözləmək olmazdı. Həyətdə zəncirdə olan iti açıb buraxaraq evdən çıxdıq.

Güllədən yayınmaq üçün Kətik dağının döşünə çıxdıq. Meşə ilə müqayisədə daha rahat olan bu yolla bir xeyli hərəkət etdik. Sonradan bu yol da çaya düşdü. Bu halda yenidən meşə yolu ilə hərəkətə davam etdik.

Səhərin açılmasına az qalırdı. Belə davam edəcəyi halda daha çox qırğın baş verə bilərdi. Xocalı sakini Bəxtiyara dedim ki, dayanmağın mənası yoxdur. Getmək lazımdır. Lakin o dayandı. Biz isə yola davam etdik. Yerlə sürünməyə başladıq. Bir də baxdım ki, həyat yoldaşım sürünə bilmədiyi üçün ayaq üstə gedir. Ondan sürünməsini istəsəm də, bunun mümkün olmadığını dedi. Beləliklə, min bir zillətlə düzəngahda taxıl sahəsinə çatdıq. Ağdamın Şelli kəndinin qənşərinə gəlib çıxdıq. Dağın Şelli tərəfində oturub dincəldik.

Aşağı düşüb Şelli sakinlərinin köməyi ilə təcili yardım maşınında Ağdama yollandıq. "Çay evi"ndə bəlkə 4-5 litr çay içdim. Yolda susayanda qarı ağzıma qoyub suyunu sorsam da, udmurdum. Qorxurdum ki, birdən öskürərəm, ermənilər yerimizi öyrənərlər.

Hava işıqlananda camaatın yarısının olmadığını gördük. 3 qaynımı və qayınanamı adamların arasında tapa bilmirdik. Qayınlarımdan biri David Haqverdiyev Xocalı özünümüdafiə batalyonunda döyüşüb. Vəziyyəti öyrənmək üçün qabağa gedərkən gördüm ki, David müəyyən məsafədə bacısını belində gətirir. Sonra atışma düşərkən bacısını qoyaraq geriyə - düşmənlə döyüşə atıldı və geri qayıtmadı. Geri qayıdıb çətinliklə də olsa yoldaşımı taparaq Ağdama çatdırdım. Digər qayınlarım Şahin, Cavanşirlə xanımı və qayınanam isə Kətik dağının başına dırmaşıblar ki, oradan Gülablıya aşsınlar. Anaları yolda keçinib. Onun üstünü paltarla örtdükdən sonra irəliləyiblər. Şahin vəziyyəti öyrənmək üçün qabağa getsə də, geri qayıtmadı. Cavanşir və həyat yoldaşını isə don vurdu. Ən yaxın ətrafı sayanda 20 nəfərdən çox doğmamı itirdim.

Əsirlikdə yaşadığım dəhşətləri hələ də unutmuram

Cəmil Məmmədov:

- 25-i fevralda günortadan sonra Xocalının üç tərəfində erməni birləşmələrinin toplaşdığını gördük. Amma heç vaxt inanmazdıq ki, onlar bizə qarşı bu cür vəhşiliklər edər...

Kəndin yuxarı tərəfində olan sovet əsgərləri ilə birlikdə ermənilər Xocalıya hücuma keçdilər. Gecənin qaranlığında insanların səsi hər tərəfi bürümüşdü. Bizim tərəflər soyuq olur. Həmin gecə hamı ayaqyalın, başıaçıq meşələrə qaçdı. İnsanlar hara gəldi qaçır, xilas olmaq istəyirdilər. Ermənilər onları tutan kimi ya başlarını kəsir, ya da üstlərinə od vurub yandırırdılar. Bacım, qohuməqrəbamın çoxu soyuqda donub öldü. Nəvəmi, bacım oğlunu götürüb qaçırdım. Ərəzəmində bizi ermənilər əhatəyə aldılar.

Ermənilər bizi yaxınlıqdakı fermaya gətirdilər. Onlar əvvəlcə cavanları ortaya çıxartdılar, bir neçəsini bıçaqla vurub öldürdülər. Yerdə qalanları çölə çıxartdılar. İçəridəkilərə cavanların qohumlarını da çölə çıxmağı tapşırdılar. Analar, atalar övladlarının ardınca bayıra çıxdılar. Onların oğullarını avtomatın qundağı ilə döyməyə başladılar. Valideynlərdən kim ki etiraz edirdi, ona da övladları ilə bir yerdə işgəncə verirdilər. Gözümün qarşısında qohumum olan neçə insanı qətlə yetirdilər. Sonra üstlərinə benzin töküb yandırdılar.

İki gün burada qaldıqdan sonra bizi yaxınlıqdakı Əsgəran rayonuna apardılar. Qarlı havada ayaqyalın sıra ilə düzülən əsirləri rayonun mərkəzindəki evlərdən birinə gətirdilər. Mən oradakı ermənilərin hamısını yaxşı tanıyırdım. İçərisində Qaron adlı biri vardı. Əvvəllər uzun müddət yanğınsöndürmə idarəsində işləmişdi. Qəddarlığı ilə seçilən bu adam Azərbaycanın çörəyini yemişdi. Mən ona bizə niyə belə zülm edirsən deyəndə o qışqıraraq cavab verdi ki, bu sözünə görə sənin qıçlarını qıracağam. O mənim ayaqlarımı armaturla vurmağa başladı. Vaxtilə bizim Xocalıda bədən tərbiyəsi müəllimi işləyən Raçik adlı digər birisi isə əlindəki bıçaqla ordakı insanların üzlərini, əllərini doğrayırdı.

Hələ gənc yaşlarımdan dişlərim töküldüyü üçün onları qızılla əvəzləmişdim. Orda bizim dişlərimizi çıxartdılar. Yerə tökülən qanı yığışdırmağı tapşırdılar. Mən qanlı torpağı cibimə yığdım.

Bir neçə gün sonra erməni əsirlərlə dəyişdirildim. Nəvəm və bacım oğlu ilə birlikdə Ağdama gətirildik. Burda müalicə alarkən öyrəndim ki, yaxınlarımın çoxunu itirmişəm. Mən indi də orda donan insanları, ağacların budağından asılmış qız-gəlinləri, ocaqda yandırılan körpələri unuda bilmirəm.

Həyat yoldaşımı itirdim

Ramiz Nəsirov:

- O ərəfədə ermənilər hər axşam güllə atırdılar, artıq buna vərdiş etmişdik. Fevralın 25-i hay-haray qopdu, camaat pərən-pərən düşdü, ermənilər artıq şəhərə doluşmuşdular. Yoldaşımı da götürüb evdən çıxdım. Amma həmin vaxt uşaqlar Şuşada idi, anamgilin yanında. Qayınatam isə insult idi, tərpənə bilmirdi, onu heç cür çıxara bilmədik. Qonşuları çağırdım, bir yerdə çıxdıq. Kəndin içi ilə irəliləyirdik. Silah da ancaq məndə idi. Cəmi 10-15 nəfər olardıq. Çayı keçəndən sonra uşaqlara dedim ki, mən sizi irəli aparacam, atışma olsa, tərpənməyin, onları geri oturdacağam, bircə yoldaşımdan muğayat olun. Bir xeyli irəliləmişdik. Dedim, dayanın, camaat dincəlsin. Baxanda gördüm ki, yoldaşım aralarında yoxdur. Soruşdum, hanı?! Heç kim bilmədi. Yenidən kəndə qayıtdım. Kəndə girəndə işıqlar söndü. Səhərə yaxın idi. Elə evə yaxınlaşmışdım ki, yuxarıdan məni pulemyot atəşinə tutdular. Qaçmağa yer olmadığından özümü suya atdım. Suyun içi ilə meşəyə doğru irəliləməyə başladım. Uzaqlaşdıqdan sonra camaatı axtardım.

Bu zaman iki qrupla rastlaşdım. Ermənilər onları mühasirəyə almaq istəyirdilər, "sən ordan gəl, mən burdan" deyə çığıraraq ermənləri panikaya saldım. Bu yolla camaatı mühasirədən çıxartdım. Amma getdikcə hava qaralırdı, artıq camaat heydən düşmüşdü, hərəkət edə bilmirdi. Mən kəşfiyyatçı olduğumdan sağ qalmağın yollarını bilirdim. Bir nəfərlə gəldim düz erməni kəndinin girəcəyinə. İkimizin bir şineli vardı. Hərəmiz bir qoluna girərək qucaqlaşıb yatdıq. Oyananda ayağa qalxa bilmirdim. Ayaqlarım donmuşdu. Gücümü toplayıb yola düzələndən sonra təxminən bir kilometr boyu ayaqlarımı hiss etmədim. Artıq iki gün idi ki, meşədə qalırdıq.

Yolda üç nəfər tapdıq. Biri ayaqyalın idi. İkisi də halsız. Onları da götürdük. Hava işıqlaşırdı. Baxdım ki, üç postun arasından keçməliyik. Elə oldu ki, ermənilər isinmək üçün təpədən aşağı endilər. Qazın turbasını deşmişdilər, oradan alov çıxırdı. Dedim ki, nə bacarırsınız, qaçın, atsalar da, dayanmayın. Bilmirəm, bizi gördülər, ya yox, bu yolla qaçıb oradan çıxa bildik. Özümlə dörd nəfəri Ağdama gətirib çıxardım. Birinin isə meşədə dizi qırılmışdı. Dedi, öldür məni, gedə bilmərəm. Yalvar-yapış etdim, xeyri olmadı. Qaldı orada. Digərləri də bizlə gəlsəydi, Xocalıdan sağ çıxa bilərdilər. Amma heydən düşmüşdülər. Aclığa, susuzluğa dözmürdülər. Həm də şokda idilər, hara baxırdılar, meyit görürdülər... Yoldaşımdan da bir xəbər çıxmadı...

Meyitlərin arasında sağ qalanları təkrar güllələyirdilər

Cavid Əliyev:

- Fevralın 25-i axşam saat 9-10 radələrində ermənilər Xocalını gülləbaran etməyə başladılar. Sanki gecənin düşməsini gözləyirmişlər. Həmin gün hava da tutqun idi. Onlar pulemyot, tank və PDM-lərlə gülləni yaşayış yerinə yağış kimi yağdırdılar.

Xocalı rabitə qovşağının rəisi vəzifəsində çalışırdım. İşçiləri idarədə qoyub meşəyə tərəf qaçdım ki, görüm vəziyyət necədir. Hər tərəfdən atırdılar, yollar tam tutulmuşdu. Yeganə çıxış yolu çayın içindən keçməklə körpünün altı idi. Poçta qayıdanda ətrafa saysız "snaryad" düşdüyünü gördüm. İşçilər getmişdi, generator isə işləyirdi. "Ratsiya"ların ikisini də götürüb Ağdamı da, Şuşanı da çağırdım, cavab vermədilər.

Generatoru söndürüb çıxdım. İşçim Elxan Hüseynov yanımda idi. Onu göndərdim ki, get anamgili, uşaqları, hamını yığ gətir Xocalıdan çıxaraq. Rabitəni yiyəsiz qoyub getmək mümkün deyildi. Əgər həmin vaxt rabitə sonadək işləməsəydi, bəlkə də bizi həbs edəcəkdilər ki, məlumat verməmisiniz. Elxan ailələrimizi gətirdi, arxadan çoxlu insan gəlib bizə qarışdı. Bu vaxt bir-birimizi itirdik. Yoldaşım, uşaqlarım, anamgil, bacımgil hərəsi bir tərəfə düşdü. Ağız deyəni qulaq eşitmirdi, hay-haray bir-birinə qarışmışdı. Atam, bacım, anam - hamısı orada idi. Üç övladım vardı, xoşbəxtlikdən biri xəstə olduğundan onları əvvəlcədən Ağdama aparmışdıq... Nə qədər çağırdım, hay verən olmadı. Yenidən evə qayıtdım, gördüm heç kim yoxdur.

Yolda iki nəfərlə rastlaşdım. Sonra çayı keçdik. Bir müddət keçəndə çox insanın ayaqları buna görə kəsildi. Yenə heç kimi tapmadıq. Arxamızca atırdılar, əl çəkmirdilər. Çıxdıq yalın üstünə, orada Elman Məmmədov, Əlif Hacıyev və polis işçilərini gördük. Burada mindən yuxarı adam vardı. Hansı tərəfə irəlilədiksə, gedib kolluğa dirəndik. Axırı belə qərara gəldik ki, gedək Şuşa istiqamətində çəkilən qaz kəməri boyunca irəliləyək. Yoxuşa çıxanda kimin ayağı sürüşürdüsə, yumalanıb dərənin dibinə düşürdü. Bu vəziyyətdə hərəkət edirdik. Səhər saat 7-nin yarısında Əsgəran-Naxçıvanik-Ağdam yolunda meşənin döşünə çatdıq. Artıq Əsgəranın içi ilə gedən adamları görürdük, onlar da bizi görürdülər. Burada ermənilərin pusquda durduğunu ağlımıza da gətirmirdik. Naxçıvaniklə Əsgəran arasında bir ferma vardı, ermənilər burada pulemyot, avtomatı hazır tutub bizi gözləyirdilər. Beləliklə, həm fermadan, həm də Naxçıvanikin dikindən bizə atəş açdılar. Orada çox adamı qırdılar. Hayhəşirlə çökəkliyə endik. Təxminən 300 nəfər idik. BTR üstümüzə gəldi, camaatı yenidən atəşə tutdular. Mən orada təpədən yumalandım. Gördüm, ürəyim bulanır, gicəllənib qaldım kolun altında. Ayılanda baxdım ki, güllələr yağış kimi səpələnir, qalxa bilmədim. Bir azdan ara sakitləşdi. Nazim adında oğlanla bir yerdə idim. Gördük ki, meyitlərin arasında gəzib diri qalanları axtarırlar, bir tərpənişhiss edən kimi təkrar güllələyirlər. Bir müddət keçəndən sonra çıxıb yuxarıda başqa bir kolluqda gizləndik. Sakitlik yarananda Şelliyə tərəf gəldik. Bu şəkildə canımızı qurtara bildik.

Digər şahidlər vasitəsilə sonradan bildim ki, ailə üzvlərim başqa bir yolla arxa tərəf gediblər. Hamısını da orada girov götürüblər. Atam isə Əsgəranın tuşunda məni axtarırmış. Vəli adında bir erməni meyitləri yığanda bizimkilərə deyib ki, atam Daşbulaqda iki ermənini vurub, digər erməni də onu öldürüb. Səhəri gün atamgili axtarmaq üçün geri qayıtdım. Digər Xocalı sakinləri də öz yaxınlarının meyitlərini axtarırdılar. Gedib Qaraqayadan o tərəfdə dayanmışdıq. Bir də gördük ki, vertolyot gəldi. Çingiz Mustafayev həmin anı çəkib. Camaat əliyalın yola yüyürdü. Oradan xeyli sayda meyit və yaralı götürdük. Bu vaxt yenidən bir erməni BMP-si peyda oldu, camaata atəş açmağa başladı. Vertolyot havaya qalxdı. İnsanlar meydanda qaldı. Fevralın 27-si idi. Həmin gün yenə də xeyli insan itkisi oldu. 23 gün müddətində orada oldum. Düz 23 gündən sonra atamın meyitini tapdıq. Anamla bacımı isə bir qrup girovla birgə buraxmışdılar... Hesablayıram, təkcə bizim qonşuluqda 41 nəfər adam şəhid olub.

Həmin gecə oğlumu, qardaşımı və həyat yoldaşımı itirdim

Xalidə Həsənova:

- Heç bir bacı belə dağ-düyün görməsin. Qardaşım Ələddinin 31 yaşı vardı. Onun toyunun tar-qaval səsi hələ qulaqlarımdan getməmişdi. İlk övladının dünyaya gəlişini gözləyirdi. Mexanik işləyirdi, əlləri qızıl idi. Yağlar Ələddinlə yanaşı daha 12 cavanın əl-qolunu bağlayaraq onları əsir götürüblər. Qardaşımdan hələ də heç bir xəbərətər yoxdur. Böyük dərddir. Nə özü var, nə məzarı. Təsəllimiz bir yadigarı ola bilərdi, o da anası böyük sarsıntı keçirdiyindən dünyaya gəlməmiş məhv oldu...

Soyqırımı günü 20 illik ömür-gün yoldaşım Ramil Həsənovu da itirdim.

Bir oğlum da namərd gülləsinin qurbanı olub. 20 yaşı hələ tamam deyildi. Azərbaycan Memarlıq və İnşaat Universitetinin ikinci kursunda təhsil alırdı. Dərs ilinin bu çağında o, Bakıda olmalı idi. Amma Mehdi adlı bu gənc auditoriyada qərar tuta bilmirdi. Nə qədər ki imkan var idi, tez-tez Xocalıya qaçıb gedirdi.

Atası üç dəfə onu vertolyota mindirib Bakıya yola salır və deyir ki, ay oğul, sən get dərslərinlə məşğul ol, biz buradayıq. Sonuncu dəfə gələndə Mehdini inadından döndərmək olmur. "Təhsil almaq həmişə mümkündür" deyərək silaha sarılıb atası, dayısı ilə hər gün ön mövqedə torpağın, elin keşiyini çəkir.

Döyüşə-döyüşə də şəhid oldu. Erməni faşistləri elə bir güllə yağışı yağdırırdılar ki, oradan salamat çıxmaq mümkün deyildi.

Mehdinin bir nişanəsi qalmayıb. Heç məzarı da yoxdur. Qalan təkcə Azərbaycan Memarlıq və İnşaat Universitetində divardan boylanan və hamı tərəfindən ehtiramla tamaşa edilən şəkildir.

Biz beş bacı atasız və qardaşsız qaldıq

Sevda Səlimova:

- Fevralın 25-də axşam evlərdə işıqlar söndü, qaz kəsildi. Bayırda zülmət qaranlıq vardı. Soyuq insanı elə bil qılınc kimi kəsir, ilan kimi çalırdı. Seyidi kişinin qonşusunun evində təhlükəli məqamlarda daldalanmaq üçün bir sığınacaq düzəltmişdilər. Adına da "tunel" deyirdilər. Həmin axşam da qonşular xeyli müddət həmin tuneldə daldalandılar. Hamı bir-birinin üzünə baxıb sükuta dalmışdı.

Araz bizi oradan çıxarmağa gəlmişdi. Azərbaycanın Milli Qəhrəmanı Araz Səlimov əmim oğludur. Bu şərəfli ada şəhidliyindən sonra layiq görülüb. O bizə açıq dedi ki, artıq ermənilər kəndə doluşub. Neçəsini elə mən özüm öldürmüşəm. Amma qarşısıalınmaz bir axın var kəndə. Ona görə burdan çıxmaq lazımdır. Atamın ayaqları ağrıyırdı, az qala, tutulmuşdu. Ona görə də qardaşım Tofiq xeyli məsafə boyu onu öz kürəyində apardı. Yolda atam ona bərk acıqlandı ki, sən qızlara kömək et. O, heç Xocalıdan çıxmaq istəmirdi. Həmişə deyirdi ki, niyə öz torpağımdan, evimdən hara isə getməliyəm?! Ölsəm də yurdumda ölüm...

Həmin gecə qardaşım Qarqar çayından balamın birini kürəyində, digərini qucağında keçirdi. Üçüncü övladımı isə çaydan özüm çətinliklə adlada bildim. Onda Səadət 8, Zaur 5 yaşında idi, Ziyanın isə iki yaşı hələ tamam deyildi.

Gəlib Qaraqaya deyilən yerə çatdıq. Ermənilər tülkü xislətlərini işə salaraq Azərbaycan dilində "mehriban" səslə: "Gəlin, gəlin, sizə kömək edəcəyik", - deyirdilər.

Lakin anam Sona xanım erməni dilini bildiyindən onların öz aralarında danışdıqlarını başa düşürdü və ətrafdakı insanlara deyirdi ki, irəliyə getmək olmaz.

O gecə atam girov götürüldü. Kişidən indiyədək heç bir xəbər-ətər yoxdur. On il birgə xoşbəxt həyat sürdüyüm ömürgün yoldaşım Taleh Abbasov da düşmən gülləsinə tuş gəldi. Qardaşım Tofiq şəhid oldu. Əmim Bahadur və onun üç oğlu - Araz, Fəxrəddin və Mikayıl da həmin gecənin qurbanı oldular.

Bibim oğlu Vaqif Məmmədov düşmənlə qeyri-bərabər döyüşdə canından keçdi. Səkkiz erməni meyitini yan-yana düzmüşdü. Nəhayət, əks tərəfdən atəşə tutularaq özü də məhv edilmişdi... Qaynım Vəliyəddin Abbasovun incə musiqi duyumu vardı. Toylarda nağara çalıb camaatın zövqünü oxşayardı. Ermənilər onu girov götürəndən sonra əllərini sındırmış və oda basmışdılar. Demişdilər ki, sənin bu barmaqlarından qopan Qarabağın səsidir, biz o səsi kəsəcəyik. Qaynım onlara cavab qaytarmışdı ki, Qarabağ da, onun torpağı da, səsi-avazı da bizimdir. Bundan sonra qaynımı qətlə yetirmişdilər. Vəliyəddinin arvadı Nəzakət bu faciədən xəbər tutdu. Yazıq gəlinin ürəyi partladı.

(Ardı var)

Hazırladı:
Səbinə MƏMMƏDOVA,
"Azərbaycan"